

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 168 (24.305)

*14 sentyabr 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


*2023-cü il "Heydər Əliyev İli"dir*

## Ümummilli Lider Heydər Əliyev və müasir həmkarlar ittifaqlarının yaranması

*Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafını təmin edir. Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş, möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən müasir qlobal çağırışlar əsasında zənginləşdirilərək uğurla davam etdirilən milli inkişaf strategiyası ölkəmizin və xalqımızın gələcəyinə böyük nikbinliklə baxmağa imkan verir. Son on il ərzində Azərbaycan dünyada ən sürətli templə inkişaf edən dövlət kimi tanınır. Bunun başlıca səbəbi elmi əsaslara söykənən iqtisadi islahatların siyasi islahatlarla tamamlanması və uzlaşdırılmasıdır. Ölkənin, dövlətin inkişafını, ilk növbədə, vətəndaşa xidmətdə görən Heydər Əliyev tarix yaratmış şəxsiyyətdir. Azərbaycanın ən önəmli, ən əhəmiyyətli tarixləri məhz onun adı və fəaliyyəti ilə bağlıdır.*




Ulu Öndərin dövlətçilik fəlsəfəsində təkcə dövlət strukturlarının gücünə deyil, həm də ictimai təşkilatların fəaliyyətinə geniş meydan verilmişdir. Bu iki prinsip vəhdət halında Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasında həlledici amillərdən olmuşdur. Vətəndaş cəmiyyətinin formalaşması isə, hər şeydən əvvəl, ölkədə dayanıqlı sabitlik, vətəndaşların təhlükəsizliyinin təmin olunması, sosial ədalət prinsipinin bərpası, demokratik dəyərlərə hörmət, hüququn aliliyinin təmin olunması deməkdir. Ümummilli Lider böyük dövlətçi, siyasi xadim və dahi şəxsiyyət olaraq dağılmış, talan edilmiş, viran qoyulmuş, yalnız adı müstəqil respublika olan Azərbaycanı ayağa qaldırdı. Dahi şəxsiyyət Heydər Əliyev nəinki ölkənin müstəqilliyini qoruyub saxlaya bildi, həm də ona dönməz xarakter verərək Azərbaycanı dünyaya açdı. Böyük Öndərin hakimiyyətə qayıdışı ilə həyatın bütün sahələrində köklü dəyişikliklərə, islahatlara start verildi. Ümummilli Lider müharibəni səngərlərdən diplomatiya müstəvisinə keçirməklə həm də ölkədə möhkəm ictimai-siyasi sabitliyi bərpa etmək istiqamətində çox ciddi tədbirlər həyata keçirdi.

Ölkədə həyati əhəmiyyətə malik olan ictimai-siyasi sabitlik bərqərar edildikdən sonra 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin müəllifliyi ilə vətəndaşlara birləşmək, istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı, digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququnu özündə əks etdirən, həmin birliklərin sərbəst fəaliyyətinə tam təminat verən ölkə Konstitusiyası qəbul olundu. Bundan sonra dövlət strukturları Konstitusiya ilə üzərlərinə qoyulan vəzifələri həyata keçirməyə başladı.

1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanda ölkə həyatının bütün sahələrində olduğu kimi, həmkarlar ittifaqları təşkilatlarının fəaliyyətində də xeyli dəyişiklik baş verdi, demokratik və aşkarlıq prinsipləri daha geniş tətbiq olunmağa başladı. 1993-cü il fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Şurası özünü buraxaraq səlahiyyətlərini yeni təsis olunan konfederativ tipli Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına verdi. Bu təşkilatın yaranması ilə həmkarlar ittifaqlarının fəaliyyətində inzibati amirlik metodlarına son qoyuldu, sahə həmkarlar ittifaqlarının səlahiyyətləri özlərinə qaytarılmaqla, təşəbbüskarlığa, yeniliyə, dünya həmkarlar ittifaqları sisteminə qoşulmağa yol açıldı.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının müstəqil qurum kimi formalaşması məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin şəxsi təşəbbüsü və nəzarəti altında 1994-cü ilin fevralında postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda "Həmkarlar ittifaqları haqqında" Qanunun qəbul edilməsi ilə həmkarlar ittifaqlarının cəmiyyətdəki yeri və statusu müəyyən olundu. Bu gün artıq Azərbaycan həmkarlar ittifaqları vətəndaş cəmiyyətinin əsas institutlarından biridir.

Ötən əsrin 50-ci illərindən etibarən ölkəmizdə olduğu kimi, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqlarının həyatında da mühüm dəyişikliklər baş vermişdir. Bu dövrdən başlayaraq ittifaq komitələrinin sahələr üzrə formalaşması bir tərəfdən hərəkatın ilk təşkilatlara daha da yaxınlaşmasına imkan yaradırdısa, ikinci tərəfdən genişlənməkdə olan böyük bir hərəkatın mərkəzləşmiş qaydada idarə olunmasını tələb edirdi. Bütün bunlar nəzərə alınaraq 1967-ci il noyabrın 17-də keçirilən təsis konfransında Naxçıvan Vilayət Həmkarlar İttifaqları Şurası təşkil olunmuş, muxtar respublikada həmkarlar ittifaqlarının fəaliyyətindəki pərakəndəliyə son qoyulmuşdur. Həmin dövrdə ittifaq üzvlərinin sayı 31 min nəfər təşkil edirdi. Naxçıvan Vilayət Həmkarlar İttifaqları Şurasının fəaliyyəti Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövrlərində daha da güclənmişdir. Ulu Öndərin təşəbbüsü ilə Muxtar Respublika Həmkarlar İttifaqları Şurasının yeni binası tikilərək 1974 -cü ildə istifadəyə verilmişdir.

Naxçıvan Həmkarlar İttifaqı bu gün də cəmiyyətin inkişafı, sosial-iqtisadi mühitin formalaşması, vətəndaşların məişət problemlərinin həll olunması, əmək şəraitinin daha da yaxşılaşdırılmasında öz səylərini artırır, işçilərin əmək və sosial qayğılarını daim diqqət mərkəzində saxlayır. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası 46224 üzvü, 767 ilk təşkilatı, 6 muxtar respublika və 10 birləşmiş rayon və şəhər komitəsini birləşdirir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı, yeni müəssisələrin yaradılması həmkarlar ittifaqlarının fəaliyyətinə də geniş imkanlar açıb. Ötən illərin təcrübəsi göstərir ki, muxtar respublikanın həmkarlar ittifaqları yaradılan şəraitdən səmərəli istifadə edir, üzvlərin sosial hüquqlarının qorunması, onların sanatoriya-kurortlara göndərilməsi, istirahətlərinin təşkili istiqamətində məqsədyönlü fəaliyyət göstərir. Bununla yanaşı, Həmkarlar İttifaqları Şurasında gənclərin məsul işlərə cəlb olunmasına xüsusi diqqət yetirilir, idarə, müəssisə və təşkilatlarda ilk həmkarlar ittifaqları təşkilatlarının sədri vəzifəsinə irəli çəkilirlər. Fəxrlə deyə bilərik ki, Ulu Öndərin tövsiyələrinə uyğun olaraq bu gün həmkarlar ittifaqları əmək prosesinə cəlb olunmuş Azərbaycan vətəndaşlarının hüquqlarının müdafiəçisi kimi ölkəmizdə fəaliyyət göstərən bütün müəssisələrdə, o cümlədən xarici sərmayə ilə işləyən təşkilatlarda, transmilli kampaniyalarda iş şəraitinin müasir standartlara uyğunlaşdırılması, sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində yeni metod və vasitələrdən istifadə edərək daha ardıcıl və məqsədyönlü fəaliyyət göstərir. Həmçinin əmək münasibətlərinin tənzimlənməsi, işçilərin əmək hüquqlarının qorunması, onların sosial müdafiəsinin, asudə vaxtının təşkili, müəssisə rəhbərləri ilə işçilər arasında əmək münasibətlərinin normal məcrada qurulması, yarana biləcək ziddiyyətlərin aradan qaldırılması, işçilərin qanuni mənafelərinin qorunması istiqamətində fəal işlər aparılır.

**Lalə MÖHBALIYEVA**
*Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə təlimatçısı*

## Muxtar respublikada 2023-cü ildə aparılan arxeoloji qazıntıların yekunları təqdim olunub

AMEA Naxçıvan Bölməsində muxtar respublikada fəaliyyət göstərən beynəlxalq və yerli ekspedisiyaların 2023-cü il üzrə yekunları ilə bağlı hesabat iclası keçirilib.



İclası giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Akademik muxtar respublikada cari ilin yay mövsümündə fəaliyyət göstərən arxeoloji ekspedisiyaların apardığı tədqiqatlardan bəhs edib. Bildirib ki, beynəlxalq Azərbaycan-ABŞ arxeoloji ekspedisiyası Sədərək rayonu ərazisində Sədərək yaşayış yerində AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev və ABŞ-ın Pensilvaniya Universitetinin müəllimi, dosent Lauren Ristvetin rəhbərliyi ilə tədqiqat aparmışdır. Bundan əlavə, professor Vəli Baxşəliyevin rəhbərliyi ilə Tumbultəpə yaşayış yerində, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimlinin rəhbərliyi ilə II Plovdağ yaşayış yerində, həmin institutun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Əkbər Bədəlovun rəhbərliyi ilə Meydantəpə yaşayış yerində 3 yerli arxeoloji ekspedisiya fəaliyyət göstərmişdir. Ekspedisiyaların fəaliyyətini yüksək qiymətləndirən bölmə sədri aparılan arxeoloji tədqiqatların Naxçıvanın qədim dövr tarixinin öyrənilməsinə mühüm töhfələr verəcəyinə əminliyini bildirib.

Daha sonra AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev Azərbaycan-ABŞ və Tumbultəpə arxeoloji ekspedisiyalarının yekunlarını təqdim edib.

Əvvəlcə Sədərək yaşayış yerində aparılan araşdırmaların yekunlarından bəhs edən alim abidənin strukturu, qazıntılar zamanı aşkar olunan Orta Eneolit dövrünə aid keramika nümunələri, məişət əşyaları barədə məlumat verib. Diqqətə çatdırılıb ki, araşdırmalar 100 kvadratmetr sahədə aparılmışdır. Bildirilib ki, aparılan araşdırmalar urartulara və skiflərə aid edilən bir çox maddi mədəniyyət nümunələrinin Manna dövlətinə məxsus olduğunu təsdiq edir. Sədərək Kültəpəsində aparılan araşdırmalar zamanı aşkar edilən, şəhərlər üçün xarakterik olan üç sıra daş döşəməli küçələr də bunun bir nümunəsidir.

Tumbultəpə yaşayış yerinin isə mövsümi yaşayış yeri kimi istifadə olunduğunu bildirən alim diqqətə çatdırıb ki, tədqiqat zamanı Son Eneolit dövrü insanlarının dördkünc formalı evlərdə yaşadığı müəyyən edilmişdir. Eneolit dövrünün son mərhələsinə aid maddi mədəniyyət nümunələri indiyədək muxtar respublikada bir sıra arxeoloji abidədən məlumdur. Ovçulartəpə mədəniyyətinin son mərhələsinə aid olan bu tapıntılar həmin mədəniyyətin geniş bir coğrafiyada yayıldığını göstərir. Tumbultəpə yaşayış yerinin tapıntıları isə bu mədəniyyətin lokal xarakter daşımadığını bir daha təsdiq edir.

Yığıncağa onlayn qatılan AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli rəhbərlik etdiyi Xaraba Gilan arxeoloji ekspedisiyasının II Plovdağ yaşayış yerində apardığı tədqiqatların yekunları barədə məlumat verib. Vurğulanıb ki, burada aşkar olunan qəbir abidələri və yaşayış yerləri daşla inşa olunmuşdur. Bəzi yerlərdə Orta Tunc dövrünün evləri inşa edilərkən İlk Tunc dövrü evlərinin daşlarından istifadə olunmuşdur. Erkən Tunc dövrünün daşla işlənmiş irihəcmli fərdi yaşayış evləri bir-birinə bitişik deyil, müəyyən intervalla eyni horizontda yerləşmişdir. Orta Tunc dövründən başlayaraq evlərin içərisində daşla dairəvi formada işlənmiş, ərzaq saxlamaq üçün xüsusi yerlər – anbarlar meydana gəlmişdir. Bu qədim ənənə Naxçıvan ərazisində müəyyən dəyişikliklərlə sonrakı bütün dövrlərdə də davam etmişdir. Bəhlul İbrahimli, həmçinin yaşayış yerində aşkar olunan keramika nümunələri və daş qutu qəbir barədə də məlumat verib.

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Əkbər Bədəlov "Zoom" proqramı vasitəsilə tədbir iştirakçılarını rəhbərlik etdiyi antik Naxçıvan arxeoloji ekspedisiyasının Meydantəpə yaşayış yerində gördüyü işlər, əldə olunan nəticələrlə tanış edib.

Alim bildirib ki, qazıntılar nəticəsində əldə edilmiş tapıntıların hamısı eramızdan əvvəl IV bizim eranın III əsrlərinə aiddir. Tapıntılar Azərbaycanın, o cümlədən Naxçıvanın antik dövr tarixinin, mədəniyyətinin, memarlığının, təsərrüfat həyatının, beynəlxalq əlaqələrinin öyrənilməsi üçün mühüm elmi əhəmiyyətə malikdir.

Sonra çıxış edən AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov arxeoloji ekspedisiyaların işini yüksək qiymətləndirərək əldə olunan yeni elmi nəticələrin bir sıra tarixi faktların dəqiqləşdirilməsinə verdiyi töhfədən söz açıb.

Sonda çıxış edən ekspedisiya rəhbərləri tədbirin təşkilinə və fəaliyyətlərinə göstərilən diqqətə görə minnətdarlıq ediblər.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Qeydiyyata alınmış və aktiv vergiödəyicilərinin sayları artıb

2023-cü ilin 8 ayında Naxçıvan Muxtar Respublikasında 4.000 yeni vergiödəyicisi qeydiyyata alınıb. Bunların 89,4 faizi fiziki, 10,6 faizi hüquqi şəxslər və digər təşkilatlar olub. Ötən ilin eyni dövrü ilə müqayisədə qeydiyyata alınmış vergiödəyicilərinin sayı 2,1 dəfə, o cümlədən fiziki şəxslərin sayı 1,9 dəfə, hüquqi şəxslərin sayı isə 33 dəfə artıb.

Yanvar-avqust aylarında kommersiya qurumlarının 63 faizi elektron qaydada, 37 faizi isə kağız daşıyıcıları vasitəsilə edilmiş müraciətlər əsasında uçota alınıb.

Naxçıvan Muxtar Respublikasında sentyabr ayının 1-nə aktiv vergiödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 13,6 faiz artaraq 14.258 olub. Hesabat dövründə aktiv əlavə dəyər vergiödəyicilərinin sayı 36,4 faiz çoxalaraq 431 təşkil edib. Aktiv obyektlərin (təsərrüfat subyektlərinin) sayı isə ilin əvvəli ilə müqayisədə 12,3 faiz artaraq 5.024-ə çatıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

*İstənilən ölkənin sosial-iqtisadi inkişafı onun fərqli amillərinin təşkilati, tənzimləmə, quruluş, prioritetlərin ardıcıl, məqsədyönlü və səmərəli şəkildə formalaşdırılmasını tələb edir. Bu sırada ölkəmizin iqtisadi və inzibati vahidləri də istisna deyil. Müxtəlif iqtisadi, demoqrafik, sosial və digər problemlərin həllində dəqiqləşdirilmiş strateji hədəflərin müəyyən edilməsi və çoxsaylı spesifik taktiki addımların atılması yolu ilə ölkə iqtisadiyyatına, onun regionlarının fəaliyyət istiqamətlərinə aydınlıq gətirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu sırada istər ümumi iqtisadi, istərsə də tənzimləmə xarakteri ilə fərqlənən tədbirlərin icrası, müxtəlifməzmunlu fəaliyyətlərin həyata keçirilməsi bəlli məzmun-məna müstəvilərinin yaradılmasına səbəb olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə 2023-cü il 5 iyun tarixli Sərəncamı da bu məsələləri özündə ehtiva edən, vaxtında qəbul olunmuş hərtərəfli inkişafı hədəfləyən dövlət sənədidir. Proqramla bağlı suallarımızı* ***iqtisad elmləri doktoru, "Naxçıvan" Universitetinin professoru Mehdi Bağırov*** *cavablandırır:*

# Yeni Proqram, yeni vəzifələr, yeni perspektivlər



***– Mehdi müəllim, ilk olaraq bu sualla sizə müraciət etmək istərdim. Yeni Dövlət Proqramı hansı zərurətdən qəbul edilib?***

– Müdrik siyasətçi, fikir və düşüncələri ilə nəinki ölkəmizin, həmçinin bir çox ölkələrin iqtisadiyyatına dəyərli töhfələrini vermiş, Azərbaycan Respublikasını müstəqilliyin ilk illərində bir çox fəlakətlərdən qurtarmış Ulu Öndər Heydər Əliyevlə başlanan islahatlar yolu 1996-cı ildən özünün müsbət nəticələrini verməyə başladı. Zərərlə işləyən sovxoz və kolxozların ləğv edilməsi, ictimai torpaqların əhaliyə paylanması, kənd təsərrüfatı texnikalarının özəlləşdirilməsi, iqtisadi sistemin sahə və halqaları üzrə biri digərini tamamlayan tədbirlərin görülməsi, maliyyə borcları nəticəsində yaranan çətinliklərin aradan qaldırılması, fərqli sahələrdə məqsədyönlü fəaliyyət proqramlarının ardıcıl tətbiq edilməsi və digər yüksək məzmunlu icraatlar, ümumilikdə, ölkənin, onun regionlarının həyatını əsaslı surətdə dəyişdirdi.

Növbəti təkamül mərhələləri ölkədaxili və xarici təcrübədən daha geniş istifadə olunmasına yol açdı. Bu sırada sistemli və kompleks işlərin icrasına keçid təmin edildi, təşkilatlanma və tənzimləmə xarakterli fəaliyyətin təcəssümləri özünü iqtisadi subyektlərin təsnifləşdirilməsində, fəaliyyət növlərinin müəyyən edilməsi və ümumiləşdirmələrində büruzə verdi. Aqrar sferada ailə təsərrüfatlarının, aqrar-hüquqi subyektlərin, kooperativlərin, digər formalı və mülkiyyət növlərinə aid struktur vahidlərinin yaradılması, sənaye məhəllələrinin, parkların təşkil edilməsi, tikintidə müxtəlif mütərəqqi üsulların tətbiqinin bərqərar olmasına şərait yaratdı.

Haqqında bəhs olunan işlərin, bütövlükdə, təmin edilməsi iqtisadiyyat sahəsində hüquqi-normativ bazanın yaradılmasına gətirib çıxardı.

Müvafiq işlərin həyata keçirilməsində Dövlət proqramlarının hazırlanması və planlı şəkildə, konkret icraçılar göstərilməsi mühüm əhəmiyyət daşıyan başlıca amildir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" müasir dövrdə olan iqtisadi və sosial sahədəki ehtiyacların qarşılanmasına, perspektiv dövrlər üzrə regionun inkişaf istiqamətlərinin dəqiqləşdirilməsinə aydınlıq gətirib. Diyarımızın texniki imkanları, ərazi yerquruluşu, təbii sərvətləri, məhsuldar qüvvələrin ixtisaslaşma və peşəkarlıq səviyyələri müvafiq Dövlət Proqramında nəzərə alınıb.

***– İstərdik ki, Dövlət Proqramının məqsəd və prioritetləri barədə bir qədər ətraflı məlumat verəsiniz...***

– İstənilən fəaliyyətin həyata keçirilməsində bir sıra hesablama-dəqiqləşdirmə işlərinin düzgün aparılması onun tammənalı olmasını təmin edir. Bu sırada məqsəd və prioritetlərin müəyyənləşdirilməsi və müvafiq əsaslandırmaların aparılması zəruridir. "Ehtiyaclar – məqsədlər - imkanlar" müstəvisindən başlanan araşdırmalar ilk olaraq real vəziyyətin təhlilinə əsaslanır. Logistik reallıqlar və imkanlar müxtəlif təsərrüfatçılıq subyektlərinin yaradılmasına, onların məqsədyönlü fəaliyyət göstərmələrinə şərait yaradır.

Dövlət Proqramında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinə hər cür dəstəyin göstərilməsi, elm və təhsil müəssisələri vasitəsilə məşğulluq komponentinə yeni çalarların gətirilməsi, Naxçıvan regionu ərazisində mütərəqqi təşkilati quruluşların yaradılması yolunda addımların atılması, "yaşıl enerji"nin istehsalata tətbiqi amilindən istifadənin real dərəcəsi və onun təcrübi imkanlarının yüksəldilməsi diqqət mərkəzinə çəkilib.

Həmçinin inzibati-ərazi vahidlərinin istehsal növ və istiqamətlərinin, onların kəmiyyət-keyfiyyət ifadələrinin dəqiqləşdirilməsi, region üzrə "istehsal-istehlak" tandeminin səviyyələndirilməsi, istehsal sferasının sosial mühitlə əlaqələndirilməsi və yeni mərhələlərə keçidin təmin edilməsi üzrə plan-proqram işlərinə start verilməsi adıçəkilən sənəddə özünə yer alıb.

Sadalananlarla yanaşı, icra olunan təhlil obyektlərinin güclü (təbii ehtiyatların mövcudluğu, bərpa olunan enerjidən istifadə, sahibkarlığın inkişafında mütərəqqi üsul və mexanizmlərin tətbiqi, əlverişli investisiya mühitinin yaradılması və sair) və zəif (dövlət xidmətlərinin əlçatanlıq səviyyəsinin aşağı olması, iqtisadi sistemin sahələrində infrastruktur imkanlarındakı çatışmazlıqlar, aqrar sahədə su təminatının aşağı səviyyədə olması, maliyyə imkanlarının məhdudluğu və sair) tərəflərinə, imkan (nəqliyyat və enerji dəhlizlərinin yaxınlığı, ixracyönümlü istehsal sahələrinin mövcudluğu, xarici ticarətin inkişafı, xarici investisiyaların cəlb olunma imkanlarının geniş diapazona malik olması və sair) və təhlükələrə (dövlət büdcəsinin vəsaitlərindən istifadə həcmlərinin yüksək olması, region məhsullarının xarici bazarlarda aşağı rəqabətqabiliyyətliliyi ilə fərqlənməsi, torpaq resurslarının keyfiyyətinin aşağı düşməsi və sair) xüsusi diqqətin yetirilməsi mühüm əhəmiyyət daşıyır.

Məqsədlərlə yanaşı, Dövlət Proqramında bir sıra prioritetlər də nəzərdə tutulmuşdur. Onların sırasında ilk yerlər əlverişli biznes və mübadilə mühitinin yaradılmasıdır. "Təchizat-istehsal-reallaşdırma" marşrutu üzrə təşkili nəzərdə tutulan fəaliyyətlər çoxsaylı birbaşa və dolayı məsələləri gələcək dövrlərdə tənzimləmiş olacaqdır. Burada təsərrüfat subyektlərinin perspektiv dövrdə istehsal proseslərinin təşkili və həyata keçirilməsi (əsas xammalın və köməkçi materialların təmin edilməsi, istehsal məhsulları üzərində əməliyyatların başa çatdırılması, onların daxili və beynəlxalq mühitdə istehlakı ödəməsi, reallaşdırmanın müxtəlif üsullarının növlər və mexanizmlər üzrə fərqləndirilməsi və sair) üsulların icrasına fərqli yanaşmaların mövcudluğu mühüm amillərdir.

Ticarətin Dövlət Proqramında daha aydın əksi üçün topdan və pərakəndə mübadilə əməliyyatları da diqqətdən kənarda qalmamışdır. Belə əməliyyatların icrası, eyni zamanda hüquqi və fiziki şəxslərin gəlirlərinə, fəaliyyətin gəlirlilik dərəcələrinin və onların zamanla yüksəlməsinə də aydınlığın gətirilməsini tələb etməkdədir.

Hər bir ölkənin iqtisadi sisteminin lokomotivi sənaye sahəsidir. Müvafiq sahənin adıçəkilən dövlət sənədində şəkilləndirilməsində çoxsaylı qruplara və yarımqruplara müraciət olunmuşdur. Bu sırada ixracyönlü sənaye, onun real vəziyyəti və inkişaf istiqamətləri xüsusi maddə şəklində ifadə edilmişdir.

Proqramda iqtisadi sistemin aparıcı sahələri olan kənd təsərrüfatı və turizm özünəməxsus yer tutub. Belə ki, regionumuzda aqrar məhsulların istehsalı, müvafiq həcmlərin istər artan istehlakçı kütləsinin, istərsə də ixrac potensialı ilə qarşılaşdırılması məsələləri kompleks şəkildə sənəddə öz əksini tapmışdır. Bununla yanaşı, muxtar respublikanın coğrafi yerləşməsi onu turizm fəaliyyətinin təşkili və həyata keçirilməsi üçün uyğun edir. Bu isə həm regionun tanıdılması, həm də əlavə maliyyə vəsaitinin regiona gəlməsi mənasını daşıyır.

Növbəti prioritetlər kimi Dövlət Proqramında elektrik enerjisi istehsalı və ixracının artırılması, infrastruktur təminatı və onun inkişafı, sosial sektorun təkamülü məsələləri, insan kapitalının inkişafına aid maddələr, institusional inkişaf, ətraf mühitin mühafizəsi, digər əlaqəli məsələlər və onların yarada biləcəyi situasiyalar göstərilir.

***– Mehdi müəllim, bir mütəxəssis kimi, yəqin ki, siz də təsdiq edərsiniz ki, Dövlət Proqramında nəzərdə tutulmuş vəzifələr bir ali məqsədə – muxtar respublikanın sosial-iqtisadi inkişafına, nəticə etibarilə, insanların yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edir.***

– Əlbəttə. Məqsədlər, prioritetlər və zərurətlərlə yanaşı, Dövlət Proqramında yekun nəticələrin ifadə olunmasına şərait yaradacaq vəzifələr də ifadə olunmuşdur.

Məzmun xarakterli vəzifələrin nümunəvi təsnifatında çoxsaylı işlərin icrası nəzərdə tutulmuşdur. Onlardan Naxçıvan regionunda dayanıqlı istehsal və xidmət sferasında təkamülün əldə olunması, əhalinin iş yerlərinə olan tələbatının ödənilməsi, perspektiv dövrlərdə məşğulluq problemində olan çatışmazlıqların aradan qaldırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, onun gəlirlərinin tələblərinin səviyyəsinə uyğunlaşdırılması, təbii ehtiyatlardan istifadənin səmərəliliyinin yüksəldilməsi, ətraf mühitin mühafizəsinin təmin edilməsi, yarana biləcək ekoloji problemlərin önlənməsi və digər məsələlər mühüm əhəmiyyətə malikdir.

Proqramda nəzərdə tutulan vəzifələrin texniki xarakterini, ilk növbədə, icra, monitorinq və qiymətləndirmə işləri təşkil edəcək. İcra olunan işlərin xüsusiyyətlərindən asılı olaraq yerinə yetiriləcək vəzifələr spesifik ölçü üsullarına və kəmiyyətlərinə əsaslanır.

Monitorinqlərin aparılması məlumatlanma və kənar istifadəçilərin məlumatlandırılması məqsədi daşıyır. Belə ki, monitorinqlər Dövlət Proqramında nəzərdə tutulan işlər haqqında məlumatların müşahidə altına alınmasını nəzərdə tutur.

Digər tərəfdən, qiymətləndirmə fəaliyyəti heç də az əhəmiyyətli fəaliyyət hesab edilmir. Belə ki, istehsal həcmləri, görülən işlər, göstərilən xidmətlər "proqnozlar – alınmış real nəticələr" müstəvisində öyrənilir. İcra dərəcələrinin müxtəlif fəaliyyət istiqamətləri üzrə müəyyənləşdirilməsi, formalaşmış, yaxud formalaşmaqda olan kənarlaşmaların və onların səbəblərinin araşdırılması nəzərdə tutulan vəzifələr sırasındadır.

***– Bəs Dövlət Proqramının qəbulundan ötən dövr ərzində hansı işlər görülüb?***

– Muxtar müəllim, bu sualınıza cavab verməzdən öncə onu qeyd etmək istərdim ki, XX əsrin 90-cı illərində ölkəmizin iqtisadi sisteminin formalaşması "demokratik mərkəziyyət" prinsipi üzərində qurulmuşdu. Müvafiq prinsip mərkəzdə yaradılan fəaliyyət istiqamətlərinin regionlarda təşəkkülünü nəzərdə tuturdu.

Əhalinin 2/3-si kəndlərdə məskunlaşan muxtar respublikada islahatlardan sonrakı dövrlərdə fermer təsərrüfatlarının, sonrakı mərhələdə isə ailə təsərrüfatlarının yaradılması qanunauyğun hal kimi qiymətləndirilməlidir. Digər tərəfdən, Naxçıvanda aqrolizinq müəssisəsinin və rayonlarda onun filiallarının yaradılması aqroməhsulların istehsalının yeni, daha yüksək mərhələyə keçidin zamanətçisi oldu.

Naxçıvan Muxtar Respublikası regionda bəlli sahəvi və istiqamətlərin fəaliyyətlərinin həyata keçirildiyi məkan olaraq qiymətləndirilir. Bir tərəfdən, mövcud olan iqtisadi sahə və istiqamətlərin fəaliyyətinin sənəddə əks olunması, digər tərəfdən isə "ASAN", "DOST" kimi xidmətlərin istifadəyə verilməsi, çoxsaylı logistik imkanların yaradılması və mütəmadi təkmilləşdirilməsi müvafiq kəmiyyət-keyfiyyət ifadələrinin ortaya çıxmasına səbəb olmuşdur.

Naxçıvan regionunun qədim ipəkçilik ənənələri ilə fərqlənməsi məlumdur. Ancaq Ordubad şəhərində İpək fabrikinin əsas fondlarının köhnələrək sıradan çıxması onun ləğvini şərtləndirmişdir. Müasir dövr bu kimi istehsal subyektlərinin yenidən formalaşdırılmasını tələb edir.

Ümumiyyətlə, müasir dövrün tələblərinə uyğun olaraq yeni subyektlərin fəaliyyətinin ötən dövrlərin bazasında araşdırılması, yeni istehsal müəssisələrinin yaradılması üçün həyata keçirilən tədbirlər təqdirolunasıdır. Məhz Ordubad rayonunda tutluq sahələrin salınmasına başlanılması görülən işlər sırasındadır. Yeni Dövlət Proqramının çoxşaxəliliyi, prioritetliyi qarşıya icrası zəruri olan bir sıra vəzifələr qoyur ki, bu vəzifələrin uğurla öhdəsindən gəlinəcəyinə əminik.

***– Müsahibə üçün sağ olun.***

**Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Əməkdaşlıq görüşü keçirilib



Naxçıvan Dövlət Universiteti və "Naxçıvan Qaziləri" İctimai Birliyi arasında əməkdaşlıq görüşü keçirilib.

Universitetin rektoru, dosent Elbrus İsayev "Naxçıvan Qaziləri" İctimai Birliyinin nümayəndələrini salamlayaraq 44 günlük Vətən müharibəsində qazandığımız qələbənin Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu və uzaqgörən siyasəti, müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı və xalqın birliyi sayəsində əldə olunduğunu xüsusi fəxr hissi ilə vurğulayıb.

Rektor bildirib ki, qazilər və şəhid ailələrinin ali təhsil ocağının malik olduğu bütün imkanlardan yararlanması üçün lazımi şərait yaradılacaq, ictimai birliyin iştirakı ilə vətənpərvərlik mövzusunda mütəmadi tədbirlər təşkil olunacaq.

"Naxçıvan Qaziləri" İctimai Birliyinin sədri Ceyhun Bayramov bu təşəbbüsə görə təşəkkür edib.

Rektor Elbrus İsayev qazilərin təkliflərini dinləyib, mövzu ətrafında müzakirələr aparılıb.

Sonda rektor Naxçıvan Dövlət Universiteti adından "Naxçıvan Qaziləri" İctimai Birliyinə 44 günlük Vətən müharibəsinə həsr olunan rəsm əsəri hədiyyə edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Şagirdlər dərslik, müəllimlər isə metodiki vəsaitlərlə təmin olunublar



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən 2023-2024-cü tədris ili üçün hazırlıqla bağlı həyata keçirilən tədbirlərdən biri də şagirdlərin dərsliklərlə vaxtında təminatıdır. Bunun üçün nazirlik tərəfindən ümumtəhsil məktəblərindəki dərsliklərin təhlili aparılmış, yeni dərsliklərə tələbat müəyyənləşdirilmiş, cari ilin aprel ayında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə 193 min 447 dərslik sifariş verilmişdi. Avqust ayının əvvəllərindən başlayaraq sifariş verilən dərsliklərin və müəllimlər üçün metodiki vəsaitlərin muxtar respublikaya gətirilərək məktəblərə təhvil verilməsi təmin olunmuşdur.

Sentyabrın 13-dən isə muxtar respublikanın bütün ümumtəhsil məktəblərində şagirdlərə dərsliklərin, müəllimlərə isə metodiki vəsaitlərin paylanılmasına başlanılıb. Bu addım tədris ili başlananadək şagirdlərin bütün dərsliklərlə təmin edilməsinə və məzmunla tanış olmalarına imkan verəcəkdir. Müəllimlərə veriləcək metodiki vəsaitlər isə onların tədris prosesini planlaşdırmalarına və metodiki hazırlıq səviyyələrini artırmalarına yaxından köməklik edəcəkdir. Bu tədris ilində ümumtəhsil məktəblərinin IV, VIII, XI siniflərində istifadə olunacaq bütün dərsliklər və VI sinif "Təbiət" dərsliyi yeni nəşrlərdir.

Vaxtında və pulsuz paylanılan dərs vəsaitləri bu sahəyə olan dövlət qayğısının nəticəsidir. Məlumat üçün bildirək ki, bu gün muxtar respublikanın ümumtəhsil məktəblərinin kitabxanaları 3 milyona qədər dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyat və ayrı-ayrı fənlərin tədrisi üçün elektron tədris vəsaiti ilə təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*İnsanların sağlamlıqlarına qovuşmalarına köməklik etmək kimi humanist addımlara diyarımızda tez-tez rast gəlirik. Naxçıvan şəhərindəki və rayon mərkəzlərindəki xəstəxanaların kollektivləri də yerində xidmət göstərməklə yanaşı, ucqar dağ kəndlərinə gedərək humanitar aksiyalar həyata keçirir. Bununla yanaşı, Bakı şəhərindən yüksəkixtisaslı mütəxəssislərin dəvət olunaraq onların iştirakı ilə müxtəlif cərrahi əməliyyatların aparılması, humanitar tibbi aksiyaların keçirilməsi də ənənə halını alıb. Belə tədbirlərin davamı olaraq sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin dəvəti ilə qardaş Türkiyə respublikasının tanınmış səhiyyə ocağı olan "Medikal Park" xəstəxanalar qrupunun həkimlərindən ibarət briqada Naxçıvana gəlib. Əvvəlcə heyət Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxovla görüşüb. Görüş zamanı əlaqələrin daha da genişlənəcəyi, türkiyəli həkimlərin gələcəkdə də Naxçıvanda səhiyyə xidmətinin inkişafına dəstək olacaqları bildirilib. Sonra Naxçıvan Sağlamlıq Mərkəzində humanitar tibbi aksiyaya start verilib. Türkiyəli həkimlər onlara müraciət edən xəstələri müayinə edib, lazımi tövsiyələr veriblər.*

*Səhiyyə*

## Humanitar aksiya – qardaşlığın daha bir nümunəsi

Biz də həkimlərlə həmsöhbət olmazdan əvvəl Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini Samiq Sadıxovun son aylarda səhiyyə sahəsində aparılan islahatlar və keçirilən aksiyalar barədə fikirlərini öyrənmək fürsəti əldə etdik. Nazir müavini qeyd etdi ki, respublikamızda və onun ayrılmaz tərkib hissəsi olan diyarımızda müasir tibb ocaqlarının tikilib istifadəyə verilməsi, insanların sağlamlıqlarının qorunması, əhalinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikanın şəhər və rayon mərkəzlərində yerləşən səhiyyə ocaqlarında yaradılan şərait tibb işçilərinin insanların sağlamlığı qayğısına daha yaxşı qalmasına kömək edir. Hazırda Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində köklü islahatlar həyata keçirilir, dünya təcrübəsinə əsaslanmaqla struktur yenilikləri aparılır. Bu islahatların əsas məqsədi cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla, tibbi xidmətin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etməkdir.

Son aylarda dövlətimizin dəstəyi ilə Naxçıvanda səhiyyə sahəsində bir çox işlər görülməsi paytaxt Bakıda və qardaş Türkiyə Respublikasında fəaliyyət göstərən tanınmış xəstəxanaların da diqqətini cəlb edir. Ötən aylarda Ümummilli Lider Heydər Əliyevin yüzillik yubileyi münasibətilə paytaxtda yerləşən tanınmış xəstəxanalardan olan "Məlhəm" və "Liv Bona Dea" beynəlxalq hospitallarının yüksəkixtisaslı professor-həkim heyəti muxtar respublikada humanitar aksiya keçirdi, yurdumuzun azyaşlı sakinləri də bu aksiyadan yararlandılar. Hazırda Türkiyənin tanınmış xəstəxana qrupunun həkimləri burada humanitar aksiya keçirməyə gəliblər. Bu cür peşəkar həkimlərin iştirakı ilə aksiyaların keçirilməsi, həm əhalinin həkim müayinələrinə olan tələbatının ödənilməsi, həm də yerli həkim heyəti ilə təcrübə mübadilələrinin aparılması baxımından çox əhəmiyyətlidir.

Nazir müavini onu da bildirdi ki, səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır. Nəticədə, yerli həkim kadrları tərəfindən müstəqil şəkildə mürəkkəb əməliyyatlar həyata keçirilir. Bu da əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını alıb. Aztəminatlı ailələrdən olan xəstələrə muxtar respublikadan kənara getmədən mürəkkəb cərrahi əməliyyatların təşkili onlara həm maddi, həm də mənəvi dəstək olur. Xəstəliklərin müayinə və müalicəsində daim yeni metodların öyrənilməsi və tətbiq edilməsi hər bir tibb işçisinin gündəlik fəaliyyətinin tərkib hissəsi hesab edilir. Bu baxımdan da belə tədbirlərin keçirilməsi çox əhəmiyyətlidir. Həkimlər arasında fikir mübadiləsi aparılır. İnsanlarımız keyfiyyətli tibbi xidmətlə təmin olunur. Samiq Sadıxov onu da xüsusi vurğuladı ki, qardaş ölkənin professor-həkimləri ilə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi arasında əməkdaşlığın da yaradılması üçün danışıqlar aparılır.







"Medikal Park" xəstəxanalar qrupunun beynəlxalq təşviq və biznesin inkişafı mərkəzinin icraçı direktorunun müavini ***Madina Lakerbaya*** bildirdi ki, Türkiyənin ən böyük xəstəxana qrupu olan "Medikal Park"ın həkimləri Naxçıvan Səhiyyə Nazirliyinin dəstəyi ilə buradadır: – Məmnunuq ki, doğma olan Azərbaycanda insanların müayinə və müalicəsinə köməklik edə bilirik. Hər yaş qrupundan olan xəstələrin müayinəsi üçün burada əlimizdən gələni edirik. Hematoloq, neyrocərrah, travmatoloq-ortoped, uşaq qan xərçəngi və ilik nəqli mütəxəssislərimiz burada bir gün ərzində sakinləri müayinə edəcək, ehtiyac olarsa, həmin xəstələr İstanbulda və başqa bölgələrimizdə yerləşən xəstəxanalara dəvət ediləcək. "Medikal Park" xəstəxanalar qrupunun təkcə Türkiyədə deyil, bir neçə xarici dövlətdə də xəstəxanalarının fəaliyyət göstərdiyini qeyd edən müsahibim onu da dedi ki, bu onun Azərbaycana ikinci gəlişidir, özünü sanki öz yurdundakı kimi hesab edir: "Naxçıvanın səmimi, gülərüz insanlarını tanımaq çox gözəldir. Bu şəhər rahat yaşamaq üçün çox gözəl bir məkandır. Havası təmiz, insanları səmimi, sakit bir şəhər deyəndə həmişə Naxçıvanı xatırlayacağam".





"Medikal Park" xəstəxanalar qrupunun İstanbul şəhərində yerləşən xəstəxanasından gələn uşaq hematoloqu, professor ***Tunc Fışqın:***

– Tibbi müayinələr zamanı həkimlər tərəfindən profilaktik baxış keçirilir, sağlamlığa dair məlumatlar və xəstəliklərə səbəb olan risk faktorları ilə bağlı tövsiyələr verilir. Xəstəlik aşkar olunduğu halda pasiyentlər yerində müalicəyə cəlb olunurlar. Buranı özümə doğma hiss edirəm. Havası, suyu saf, təmiz və sakinləri o qədər cana yaxındır ki, sanki öz evindəsən. İnsanlara şəfa bəxş etməkdən gözəl heç nə ola bilməz bu həyatda. Səhiyyə ocağı ilə də tanış olduq. Tibbi heyət çox səmimi, peşəsini sevən və gülərüz insanlardır. Xəstəxanada müasir tibb avadanlıqları var. Burada yaradılan şərait çox gözəldir. Gələcək aylarda bu kimi tədbirlərin davamı olsa, yenə də gəlib iştirak etməyi özümüzə borc bilirik. Çünki siz azərbaycanlılar bizim can qardaşımız, çətin və sevincli günlərimizin yoldaşısınız.

Humanitar tibbi aksiya üçün Naxçıvana gələn neyrocərrah ***Sait Öztürk*** ilə də həmsöhbət olduq: – Bu, Naxçıvana ilk gəlişim olsa da, özümü yurdumdakı kimi hiss edirəm. Dilimiz, dinimiz bir olan insanlara xidmət edə bilmək qürurvericidir. İnsanları müayinə etdikcə onların gözlərindəki səmimiyyəti, minnətdarlıq hissini gördükcə atalarımızın "bir millət, iki dövlət" sözlərini xatırlayıram. Gələcək aylarda buraya yenə gəlməyi düşünürük.

*Qeyd edək ki, aksiyada 300-ə yaxın xəstə müayinəsi həyata keçirilib. Həkimlərdən bir neçəsi tibbi xidmətlə yanaşı, tibbi təhsillə də məşğul olduqlarını, öz təcrübə və bilikləri ilə Naxçıvanda tibb təhsili sahəsində də fəaliyyət göstərməyin onlar üçün çox xoş olacağını bildirdilər.*

✍ **Ramiyyə ƏKBƏROVA**

*Yüksək səviyyəli təhsil özlüyündə sivil toplum, peşəkar mütəxəssislər, aydın və uğurlu gələcəyin təminatı deməkdir. Hər kəsin şəxsiyyət kimi cəmiyyətdə mövqe tutmasında təhsilin böyük önəmi vardır. Azərbaycanda təhsilin inkişafına göstərilən qayğı ölkənin gələcəyinə xidmət edən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Təhsil sisteminin müasir tələblər səviyyəsində qurulmasının əsasında məhz məqsədyönlü siyasət və düşünülmüş strategiya dayanır. İnşa olunan hər bir məktəb binası, yaradılan müasir təhsil infrastrukturu savadlı, intellektli və vətənpərvər gəncliyin yetişdirilməsinə xidmət edir. Bu sahənin hərtərəfli inkişafı istiqamətində atılan mühüm addımlar təhsilin keyfiyyətinin yüksəldilməsinə zəmin yaratmaqla bərabər, daha intellektli nəsillərin yetişdirilməsinə öz töhfəsini verir.*

*Təhsil millətin gələcəyidir*

## Yeni dərs ilinin astanasındayıq



Təhsilimizin himayədarı olan Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: ***"Təhsil Azərbaycanın gələcəyini təmin edən bir sistemdir".*** Təsadüfi deyil ki, bu gün ölkəmizdə təhsilə hərtərəfli qayğı göstərilir, övladlarımızın işıqlı gələcəyi naminə uğurlu addımlar atılır, ən əsası dahi rəhbərin müəyyənləşdirdiyi təhsil strategiyası Prezident cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Dövlət başçımızın uzaqgörən siyasəti nəticəsində həyata keçirilən işlər, icra edilən Dövlət proqramları təhsil sistemində daha yüksək nəticələrin qazanılmasına şərait yaradır. Bu da, şübhəsiz ki, ölkəmizin milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə öz töhfəsini verir.

Ölkə başçısının digər regionlar kimi, Naxçıvan Muxtar Respublikasında da təhsilin inkişafına göstərdiyi qayğı və bu kontekstdə görülən işlər, qazanılan uğurlar hər birimizi bu prosesin şahidinə çevirib. Təkcə bir faktı qeyd edək ki, 2022-2023-cü tədris ilində 13 təhsil müəssisəsi tikilərək və ya əsaslı şəkildə təmir olunaraq istifadəyə verilib. Hazırda 6 təhsil müəssisəsinin tikintisi və yenidən qurulması işləri davam etdirilir.

Bu gün təhsil pillələri üzrə müasir texnologiyaların tətbiqi, 5785 kompüter və 676 elektron lövhənin, STEAM kabinələrinin qurulması, xarici dillərin tədrisi imkan verir ki, muxtar respublika gəncləri ixtisaslı kadr kimi formalaşsınlar. Yaradılan şərait isə öz bəhrəsini verməkdədir. Məlumat üçün deyək ki, ötən il ölkə üzrə ən yüksək qəbul nəticəsi Naxçıvan, Şahbuz və Ordubad rayonlarında olub. Ali təhsil müəssisələrinə qəbul göstəricilərinə görə ilk onluqda muxtar respublikanın altı şəhər və rayon təhsil şöbəsi yer alıb.

Artıq yeni dərs ilinin başlanmasına bir gün qalır. Məlum olduğu kimi, uzun illərdir, muxtar respublikanın ümumtəhsil məktəblərində vahid geyim formasından istifadə olunur. Ötən illərdən fərqli olaraq bu ildən məktəblilər yeni geyim formalarını da ala biləcəklər. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli "Dövlət ümumi təhsil müəssisələrində təhsilalanların geyim formalarının təsvirləri"nin təsdiq edilməsi haqqında Qərarına əsasən ölkənin ümumtəhsil məktəblərində 4 cür geyim formasından istifadə olunacaq. Muxtar respublikanın ümumtəhsil məktəblərinin pedaqoji şurasının qərarına uyğun olaraq valideynlər övladları üçün ölkə üzrə istifadə olunan məktəbli geyimlərindən də ala bilərlər. Bu məcburi deyil və valideynlərin öz arzusu ilə ola bilər. Cari il üçün ümumtəhsil məktəblərində hər iki geyim formasından da istifadəyə icazə veriləcək. 2024-2025-ci tədris ilindən isə ölkə üzrə tətbiq olunan geyim formalarından istifadə artıq məcburi olacaqdır.




Təqdirəlayiq haldır ki, övladlarımızı vahid geyim formasında təhsil almağa göndərə bilirik. Vahid forma ilə məktəbə gəlmiş şagird "mənim paltarım səninkindən, sənin paltarın mənimkindən daha qəşəngdir" sözünü deyə bilmir. Bu da, hər şeydən əvvəl, şagirdlərin cəmiyyətdə özlərinə qarşı hörmət hissi ilə yanaşmasında, mühüm əhəmiyyət kəsb edir. Məktəbli formasının olması uşaqlar arasında sosial bərabərlik yaratmaqla yanaşı, onların dərsə olan maraqlarına da müsbət təsir edir və artıq şagirdlərin geyimlərini yoldaşları ilə müqayisə etməsinə ehtiyac qalmır. Məktəblilərin vahid forma geyinməsi, həm də onların bərabərliyinin təminatından xəbər verməklə bir-birlərinə münasibətlərinə də təsir edir.

Onu da qeyd edək ki, hər il olduğu kimi, yeni tədris ili ərəfəsində də Naxçıvan Muxtar Respublikası Təhsil və İqtisadiyyat nazirlikləri və Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Naxçıvan şəhəri, Heydər Əliyev prospektində yerləşən "Kitab Evi"ndəki sərgi-satış mərkəzində ənənəvi məktəbli yarmarkası təşkil olunub. Yarmarkanın təşkil edilməsində məqsəd yeni tədris ili ərəfəsində orta məktəb şagirdlərinin məktəbli ləvazimatlarına olan ehtiyaclarını sərfəli qiymətlərlə əldə edə bilmələrinə xidmət edir.

Son olaraq qarşıdan gələn yeni tədris ili münasibətilə müəllim və şagird kollektivini təbrik edir, uğurlarınızın sonsuz olmasını diləyirik.

**Nuray ƏSGƏROVA**

## Naxçıvanın qədim tarixi, abidələri, insanlarının qonaqpərvərliyi yaponların da diqqətini çəkib

*“Günəş” Uşaq Akademiyası Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində fəaliyyət göstərən “Ulduztravel” tur xidmətlərinin təşkilatçılığı ilə “Naxçıvanı tanıyaq” adı altında 50 nəfər yaponiyalı turistin Naxçıvana ikigünlük səfəri təşkil edilib. Səfər çərçivəsində qonaqlar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində ucaldılan abidəsini ziyarət edib və Heydər Əliyev Muzeyi ilə tanış olublar. Qonaqlara Ulu Öndərin Azərbaycan və Yaponiya arasında dostluq münasibətlərinin formalaşmasında və inkişafındakı rolu barədə məlumat verilib, muzeydə görkəmli dövlət xadiminin Yaponiyanın imperatoru və baş naziri ilə görüşündən fotoların nümayiş etdirildiyi vurğulanıb. Daha sonra Möminə xatın türbəsi, “Əshabi-Kəhf” Dini-Mədəni Abidə Kompleksi, Qarabağlar türbəsi və digər gəzməli-görməli yerlərlə tanışlıq olub. Qonaqlar səfər təəssüratlarını “Şərq qapısı” qəzeti ilə bölüşüblər:*



***Taro Sawada – “TET İnternational Development” LLC şirkətinin prezidenti və icraçı direktoru:*** – Artıq 6-cı ildir, Azərbaycana gəlibgedirəm. Azərbaycanda kənd təsərrüfatında tütünçülük ən çox diqqət yetirdiyimiz sahədir. Zaqatala, Şəki, Oğuz, Tovuz kimi rayonlarda dörd istehsalat məntəqəsində əkindən, məhsulun ixracına qədər bütün istehsal şirkətimiz tərəfindən icra edilir. Qürur hissi keçiririk ki, Yaponiyanın dostu olan Azərbaycan Respublikasının iqtisadi inkişafına və əsasən, kənd təsərrüfatı sahəsində işgüzar fəaliyyət göstərməklə Azərbaycan və Yaponiya arasında sıx əlaqələrin yaradılmasına töhfə veririk. O cümlədən Azərbaycanın tarixi, mədəniyyəti, təhsili sahələrində də maraqlıyıq. Naxçıvana üçüncü dəfədir, gəlirəm. Hər dəfə gəldikcə Naxçıvanın qədimliyini, Azərbaycanda ən təmiz bir şəhər olduğunu görürəm. Biz yaponların qədim tarixə çox marağı vardır və qərara gəldim ki, Naxçıvanın tarixini yaxından öyrənim. Buranın qədimliyini gördüm və buradakı mədəniyyəti və insanların qonaqpərvərliyini hiss etdim. Tam gəzdikdən sonra 50 nəfər həmvətənimi Naxçıvana dəvət etdim. Bura gəlməkdə məqsədimiz həm də Naxçıvanda istehsal olunan təbii qida məhsullarının Yaponiyaya idxal məsələlərini dəyərləndirməkdir. Çalışacağıq ki, Naxçıvan məhsullarının Yaponiyada satışını təşkil edək, sərgilərdə iştirakı təmin edək və gələcəkdə Naxçıvan və Yaponiya arasında ticarət əlaqəsi quraq.

***Yoko İshizone:*** – Kanaqava prefekturasından gəlmişəm. Səyahət yazarı kimi fəaliyyət göstərirəm. Azərbaycanın gözəl yerləri ilə tanış olmuşam. Bakı, Şəki, Zaqatala və sair bu sıradadır. Naxçıvana ikinci səfərimdir. Naxçıvanın yüksəklikləri, detallı şəkildə tikilmiş binaları və mənzərələri çox gözəldir. Heydər Əliyev Muzeyini, Möminə xatın türbəsini, Əshabi-kəhfi ilk səfərimdə də ziyarət etmişdim, lakin hər dəfə Naxçıvanın tarixi abidələri, ziyarətgahları haqqında yeni bir məlumat əldə edirəm.

***Shiga Hiromoto:*** – Yaponiyanın Tokio şə-



hərindən gəlmişəm. Azərbaycana ilk səfərimdir. Adını eşitdiyim bu ölkəyə ilk gəlişimdə buranın mədəniyyəti, mətbəxi və eyni zamanda kənd təsərrüfatı ilə tanış oldum. Kənd təsərrüfatının zənginliyini gördüm. Azərbaycanlılar çox mehribandırlar, bunu hiss etdim. Səfərimizin davamı olaraq mədəniyyət abidələrini gəzib, ölkənin nə qədər qədim tarixə malik olduğunu gördəndə ürəyimdə döyüntüləri hiss etdim. Naxçıvanda Heydər Əliyev Muzeyini gəzəndə bu dahi siyasətçinin xidmətləri barədə fikirləri heyranlıqla dinlədim. Naxçıvanın qədim abidələri məndə böyük təəssürat yaratdı. Düşünürəm ki, bundan sonra da Azərbaycana səfərlərimi artıracağam. Buranın mədəniyyətini, tarixini çalışacağam ki, daha mükəmməl öyrənim.

Qonaqlar bu gün də muxtar respublikanın bir sıra turistik yerləri ilə tanış olacaqlar.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Tədbir keçirilmişdir



Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzində hesabatlılığın formalaşması və elektronlaşmanın tam təmin olunması ilə bağlı tədbir keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Vüsal Məmmədov, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin aparat rəhbəri Vüsal Məmmədov və Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin direktor əvəzi Elçin Rəfiyev çıxış ediblər.

Tədbir iştirakçılarına məlumat verilib ki, icbari tibbi sığortanın tətbiqində iştirak edən tibb müəssisələrində “Səhiyyə informasiya idarəetmə sistemi”nin təkmilləşdirilərək tam mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi, sistemdə olan boşluqlar, yaranmış bir sıra nöqsanlar, yeni modulların yaradılması və bir sıra dəyişikliklərin edilməsi nəzərdə tutulur. İcbari tibbi sığortanın başlıca funksiyası və əsas məqsədi tibb müəssisələrinin düzgün hesabatlılığı və şəffaf maliyyələşmə mexanizminin yaradılmasından ibarətdir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Səhiyyə və tibbi statistika şöbəsinin müdiri Aysel Mikayılova və həmin şöbənin Ekspertiza sektorunun baş məsləhətçi-iqtisadi eksperti Qadir Rəfiyev Yoluxucu Xəstəliklər Mərkəzi tərəfindən 2023-cü ilin may-iyul ayları ərzində göndərilən hesabatlarda Agentlik tərəfindən sığorta ödənişindən imtina və ya sığorta ödənişinin qismən verilməsinin səbəblərini, tələb olunan maliyyə vəsaitlərinin buna görə azaldılaraq tibb müəssisəsinə ödənildiyini tibb işçilərinin nəzərinə çatdırıblar.

Tədbir diskussiya ətrafında davam etdirilmiş, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin mətbuat xidməti***

## Elmi konfransın materialları çapdan çıxıb



Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan olunmuşdur. Bu münasibətlə Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsi, keşməkeşli həyatı və fəaliyyəti ilə bağlı elmi konfranslar, simpoziumlar və müxtəlif tədbirlər keçirilir, kitab və monoqrafiyalar, o cümlədən elmi jurnallarda və dövri mətbuatda məqalələr dərc olunur. 17-18 aprel 2023-cü ildə AMEA Naxçıvan Bölməsində Ümummilli Liderin 100 illik yubileyi münasibətilə “Heydər Əliyev ideyaları və müasir dövr” mövzusunda respublika elmi konfransı keçirilmişdir. Həmin konfransın materialları bölmənin “Elmi əsərlər” jurnalının iki hissədən ibarət xüsusi nömrəsində çap olunub.

“Heydər Əliyev və Azərbaycan”, “Heydər Əliyev və beynəlxalq aləm”, “Heydər Əliyev və milli-mənəvi dəyərlər”, “Heydər Əliyev və Naxçıvan” bölmələri üzrə məqalələrin yer aldığı jurnallarda “Azərbaycanla adı qoşa çəkilən Ümummilli Lider”, “Heydər Əliyevin ipək yolu strategiyası və Azərbaycan”, “Heydər Əliyevin “bir millət, iki dövlət” düsturu Azərbaycan-Türkiyə birliyinin yol xəritəsidir”, “Milli və mənəvi varlığımızın böyük himayədarı”, “Heydər Əliyev və Naxçıvanın müdafiəsi” və başqa mövzuları əhatə edən 63 məqalə yer alıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

*Tarixi Azərbaycan torpaqları*

## Qərbi Azərbaycanın qədim türk diyarı olması danılmaz bir həqiqətdir



Tarixi həqiqətdir ki, əzəldən bəri Vətənimizə göz dikmiş mənfur erməni qonşularımız torpaqlarımızda kütləvi qırğınlar, soyqırımlar törətmiş və soydaşlarımızı yaşadıqları doğma yurd yerlərindən didərgin salmışlar. Xalqımızın tarixinə qara ləkə kimi yazılan nankor ermənilər daim bizə qarşı məkrli planları ilə, sadəcə, xəyanətkarlıq və vandallıq nümunəsi olmuşlar. Bu, bir tarixi həqiqətdir ki, Qərbi Azərbaycanda vaxtilə ermənilər yaşamamış, daşnak quldurlar öz havadarlarının dəstəyi ilə bu yerlərə başqa yerlərdən axışıb gəlmişlər. Onlar məqam düşdükcə buradakı azərbaycanlıları öz ata-baba yurdlarından sıxışdırıb çıxarmış, xalqımıza qarşı düşmən mövqeyində dayanmışlar. Fitnəkar ermənilər 1905-1906-cı illərdən 1988-1989-cu illərə kimi uzun bir müddət kütləvi deportasiya, repressiyalar həyata keçirmişlər. “Etnik təmizləmə” adlanan bu siyasi planlamanın məqsədi isə azərbaycanlıları dədə-baba torpaqlarından çıxarmaq, həmin torpaqlara sahib olmaq idi. Onların həyata keçirdikləri bu siyasət isə soydaşlarımızın müxtəlif ölkələr, yurdumuzun digər bölgələri və muxtar respublikamızda məskunlaşmaları ilə nəticələnib.



Biz də Qərbi Azərbaycandan çıxarılan soydaşlarımızla görüşmək, onların bugünkü həyat tərzi ilə daha yaxından tanış olmaq üçün Kəngərli rayonunun Çalxanqala kəndinə yollandıq. Qərbi Azərbaycandan muxtar respublikamıza deportasiya edilmiş Çalxanqala kənd tam orta məktəbinin tarix müəllimi ***Bəxtiyar Həsənov*** ilə həmsöhbət olduq. 1958-ci ildə Dərələyəz mahalının Əzizbəyov rayonunun Zeytə kəndində anadan olan, ömrünün 30 ilini həmin kənddə keçirən Bəxtiyar müəllim boya-başa çatdığı, uşaqlıq-gənclik illərini keçirdiyi doğma ocağından, kəndindən necə ayrıldığını dərin kədərlə danışır:

– Kəndimiz Zeytə çayının sahilində yerləşir. Bildiyimə görə, ermənilər 1991-ci ildən bu kəndi “Zedsa” adlandırıblar. Zeytə kəndinin təbiəti, saf havası, səfalı bulaqları, otlaqları, ucsuz-bucaqsız düzənlikləri, ərik və üzüm bağları ilə dillər əzbəri idi. 30 yaşına kimi yaşadıqları xatirələr barəsində danışdıqca sanki gözlərində doğma yurd həsrəti boylanırdı. Bəxtiyar müəllim deyir ki, Naxçıvan Dövlət Pedaqoji İnstitutunda (indiki Naxçıvan Dövlət Universiteti) təhsil alıb, 1987-ci ildən Gömür kəndində müəllim kimi fəaliyyətə başlayıb. Ermənilərin törətdikləri kütləvi deportasiyalar zamanı, yəni 1988-ci ilin dekabrında Naxçıvana gəlib. Bir il sonra isə Çalxanqala kənd tam orta məktəbində tarix müəllimi kimi əmək fəaliyyətinə başlayıb.

Bir qədər Qərbi Azərbaycanda yaşadığı günlərə qayıdan Bəxtiyar müəllim kəndin ağsaqqal və ağbirçəklərindən bir vaxtlar ermənilərin onlara qarşı olan münasibətləri barədə eşitdiklərini dilə gətirərək deyir ki, sovet hökuməti dövründə onlar əl altından iş görməyə başlamışdılar. Zahirdə biz gənclər bunu görmürdük. Ancaq yaşlılar tez-tez bu əsilsiz-köksüz millətdən özünüzü qoruyun, – deyirdilər. Sanki onlar nə isə xoşagəlməz hadisələr olacağını bilirmişlər. Və belə də oldu. 1988-ci ildə ermənilərin iç üzü yenidən göründü. Kənddə yaşayan azərbaycanlıların acınacaqlı günləri də elə o vaxt başladı. Xeyli məsləhətləşmələrdən sonra oradan çıxdıq...

Müsahibim sözünə ara verib dayanır. Hiss edirəm ki, fikir-xəyalı o yerlərə qayıdıb.

Bəxtiyar müəllim fürsətdən istifadə edərək dövlətimiz tərəfindən gördüyü qayğıya görə özü və ailəsi adından minnətdarlığını dilə gətirir. Deyir ki, dövlətimizin Qərbi Azərbaycandan gələn vətəndaşları hərtərəfli himayə etməsi bizə göstərilən böyük diqqətin ifadəsidir. Doğma yurdlarından sürgün edilən müsahibimiz vurğulayır ki, ev və işlə təmin olunub. O da bir tarix müəllimi, yaşadığımız tarixin canlı şahidi kimi şagirdlərini bu barədə daha dolğun məlumatlandırır, dövlət siyasətini təbliğ edir. Qeyd edir ki, azərbaycanlıların əzəli torpaqlarımızdan deportasiya edilməsi Azərbaycan xalqına qarşı törədilmiş bir cinayətdir və gec-tez cinayətkarlar öz cəzalarına çatacaq, doğma yurd həsrətinə son qoyulacaq. Buna ölkə başçımız da əmindir: ***“Əminəm ki, gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız onların yaxınları, qohumları, nəvələri tarixi diyarımız, Qərbi Azərbaycana qayıdacaqlar. Bu gün gələcək və Qərbi azərbaycanlılar böyük coşqu, sevinc və həvəs ilə öz doğma torpaqlarına qayıdıb yaşayacaqlar”.***

*Bu sözlər hər bir qaçqın və məcburi köçkün olan soydaşımızın qəlbindəki yurd həsrətinə təsəlli, geri dönəcəyi günə isə böyük inamdır.*

**✍ Süreyya QƏDİMƏLİYEVA**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***İşçi məzuniyyətdə olarkən hansı hallarda əmək müqaviləsi ləğv edilə bilər?***

***Cavab.*** İşəgötürənin təşəbbüsü əsasında məzuniyyətdə olan işçinin əmək müqaviləsi yalnız müəssisənin ləğv edilməsi və müddətli əmək müqaviləsinin müddətinin bitməsi əsası ilə ləğv edilə bilər. Müqavilə müddətinin bitməsi əsası ilə işçinin əmək müqaviləsinin ləğv edilməsi işçi işə çıxdıqdan sonra işəgötürənin müəyyən etdiyi gündə, lakin onun işə çıxdığı gündən bir təqvim həftəsi keçməmiş xitam verilə bilər.

İşçi məzuniyyət hüququndan istifadə etməklə ona müvafiq iş ilinə görə məzuniyyətin verilməsi və məzuniyyət müddətinin qurtardığı gündən əmək müqaviləsinin ləğv edilməsi xahişi ilə işəgötürənə ərizə verə bilər. Həmçinin işçi yaşa, əlilliyə görə əmək pensiyasına çıxdıqda, təhsilini davam etdirmək üçün müvafiq təhsil müəssisəsinə daxil olduqda, yeni yaşayış yerinə köçdükdə, başqa işəgötürənlə əmək müqaviləsi bağladıqda və qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda ərizəsində göstərdiyi gün əmək müqaviləsi ləğv edilə bilər.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Seyidov Mirtaleh Mirələkbər oğlunun adına olan 75 BH 722 dövlət nömrə nişanlı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Cəhri qəsəbəsində yaşamış Məmmədova Güllü Allahverdi qızının adına olan JN-2059A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” və JN-1343 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Türkiyə vətəndaşı Barış Bilal Hasan oğlunun adına olan A-08-E 93821 seriya nömrəli kimlik itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
www.serqqapisi.gov.az
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 538